# Xurşudbanu Natəvan-175




Görkəmli şairə Xurşudbanu Natəvan haqqında oxucularımızın məlumatlarının az olduğunu nəzərə alaraq yubileyi ərəfəsində bu boşluğu doldurmağı lazım bildik.

1832-ci ilin avqustunda Şuşada anadan olub. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə də tanınmışdır. Natəvanı bibisi Gövhər xanım tərbiyə edib böyütmüş, ona musiqini, şeri, rəsmi sevdirmişdir.

Natəvan Şərq dillərini öyrənmiş, Firdovsi, Nizami, Sədi, Hafiz, Nəvai, Füzuli və başqa klassiklərin əsərlərini oxumuşdur.

Dövrünün qabaqcıl ziyalılarından olan Xasan xan Usmiyevə ərə getmiş, Dağıstanı gəzmiş, Tiflisdə və Bakıda olmuşdur.

1858-ci ildə Bakıda A.Düma ilə görüşmüş, əl işlərindən ona hədiyyə vermişdir. Düma isə Natəvana nəfis fiqurlu şahmat bağışlamışdır.

1872-ci ildə Şuşada «Məclisi-üns» ədəbi məclisini təşkil etmişdir. 1873-cü ildə Şuşaya su çəkdirmişdir. Bu kəmər «Xan qızı bulağı» adı ilə məşhur olmuşdur.

Yaradıcılığa 50-ci illərdən ənənəvi Şərq mövzusu və janrlarında şerlərlə başlamışdır. Qəzəllərində məhəbbət, təbiət gözəllikləri («Gülün», «Qərənfil» və s.) tərənnüm olunur.

16 yaşlı oğlu Mir Abbasın ölümündən sonra bədbin ruhlu şerlər («Ağlaram», «Olaydı», «Getdi», «Sənsiz», «Ölürəm» və s.) yazmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şerlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. Onun bədii tikmələri, «Gül dəftəri» adlı albomundakı rəsmlər buna sübutdur.

S.ƏKBƏROVA

M.F.Axundov ... Azərbaycan ... Kitab...
170 / 7 -